# Nicat Dağlar yenid□n Gürcüstana aparıldı

16.07.13 18:33



**Tanınmış jurnalist Nicat Dağlar yenid□n Gürcüstana aparılıb.□**

Bu barədə jurnalistin həyat yoldaşı Ülviyyə Hüseynova məlumat verib. Onun sözlərinə görə, N. Dağlar Gürcüstanda növbəti müalicə kursunu qəbul edəcək: “Ötən həftə Nicat leykoz xəstəliyinin qarşısını alan xüsusi dərman preparatının birincisini qəbul edib. İndi isə ikinci dərmanı qəbul edəcək. İnşallah iyulun 20-də Bakıya dönəcəyik. Oradan da Nicatı birbaşa Almaniyaya aparacağıq”.

Qeyd edək ki,”telegraf.az” saytının redaktoru Nicat Dağlar leykoz xəstəliyindən əziyyət çəkir. İki uşaq atası olan Nicatın müalicəsi Almaniyadakı klinikaların birində aparılacaq. Dövlət başçısının tapşırığı ilə N. Dağların bütün xərcləri dövlət hesabına aparılacaq.